

*Vaqif Əliyev,*
*Azərbaycan-İsrail*
*Yazıçılar Birliyinin üzvü*

## QANADINA QURBANAM

*"AZAL" şirkətlər qrupunun təyyarəsiylə Azərbaycana uçduğum vaxtı keçirdiyim hisslər*

Qanadına qurbanam,
məni Vətənə çatdır,
Həsrətindəyəm onun,
görmürəm xeyli vaxtdır.
Sevimli Simurq quşu,
tez qalxsana havaya!..
İstəmişəm quş olum,
mən də qalxım səmaya,
Xəyalımda uçmuşam
tez-tez Vətənə sarı,
Bircə odur qəribin
görmək
istəyi, varı.
Bura cənnət diyardır,
qayğılardan uzağam.
Elindən ayrı düşmüş
anasız bir uşağam.
Vətən bizə daima
əziz, doğma anadır.
Həsrət tez-tez qəribin
didib qəlbin qanadır.
Vətənin ətrini mən
duyuram bu salonda.
Canım qurbandır ona
nə vaxt desə yolunda.
Vətənə uçduğum vaxt
bu şeirimi yazıram,
Onun hər cəfasını
mən çəkməyə hazıram!

## SƏNİ GÖZLƏYİR ZƏFƏR

Oyanıb səhər erkən,
yerimdən qalxıram mən.
Sinəmdəki duyğular
qoymur yatım yenidən.
Elə bil növbəsini
başa vurdu bu gecə.
Görürdüm yavaş-yavaş
uçub gedir o necə...

Elə ki günəş çıxıb
üfüqdən boylanırdı,
Hər tərəf al şəfəqə
sürətlə boyanırdı.
Gülümsəyib üzümə
günəş alqış edirdi.
O göylərin salamın
mənə tez yetirirdi.
Üzümə açılırdı
beləcə gözəl səhər.
Günəş də deyirdi: - get,
səni gözləyir zəfər!

## YANDIRAR ASAN

Biləydim qədrini əzəldən gərək,
Axı niyə dəydim, sənin xətrinə?
İndisə möhtacdır məndəki ürək
O çiçək ətrinə, o gül ətrinə.

Yenidən könlünü necə alım ki,
Göylərdən qaytarım səni özümə?
Girib ürəyində gərək qalam ki,
Yenə görünəsən mənim gözümə.

Nahaqdan deyilmiş bir acı kəlmə
Büllur ürəkləri sındırar asan.
Mələklər göylərdən gəlmədir, gəlmə,
Acı söz onları yandırar asan!

## CƏSARƏT

Xoş duyğular yaranıb
musiqinin səsindən.
Doyan yoxdu bu toyda
oynamaq həvəsindən.
Ürək gəlib riqqətə,
damarda qan qaynayır.
Cavanlar əl-qol açıb
yorulmadan oynayır.
Gözaltı etdiyim qız
çəkmir məndən gözünü,
Özü yanır, sinəmə
atır odlu közünü.
Xumar baxışlarından
tüstülənib yanıram,
Onu göylərdən enmiş
huri-mələk sanıram.
Qorxmayıb pərvanətək
özünü oda atır.
Xeyli vaxtdır bu qızın
könlü, könlümə yatır.
Pərvanətək sevənin
oddan qorxusu olmaz.
Gecədən səhərədək
rahat yuxusu olmaz.

## BELƏ OLUR BULUDLARIN NOĞULU

Yel başlayıb dəcəlliyə gör necə,
Qoymayıbdır buludları o dincə.
Himə bənddi ağlayacaq indicə,
Doluxsunub uşaqtəki elə bil.

Ağ buludlar indi olub çox qara,
Başladımı, verməyəcək heç ara.
Yer üzünü qərq edəcək sulara,
Bir dəryadır içindəki elə bil.

Tutulubdur;
tökəcəkdir o dolu,
Göydən düşən dənələri buz, sulu.
Belə olur buludların noğulu,
Buz qatıdır üstündəki elə bil.

Gücünə bax bu qudurğan küləyin,
O sökəcək buludların ələyin.
Yaradacaq çaxnaşmadan şimşəyin
Qamçısıdır əlimdəki elə bil.